

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 60-61 (7109-7110) ❁ Çərşənbə axşamı, 13 avqust 2013-cü il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Prezident İlham Əliyev Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasının 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.

❁ ❁ ❁

Dövlətimizin başçısı İlham Əliyev Almaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Haydrun Tempelin etimadnaməsini qəbul etmişdir.

❁ ❁ ❁

Azərbaycan Prezidenti İlham Əliyevin Kürdəmir rayonuna səfəri olmuşdur.

Səfər çərçivəsində dövlətimizin başçısı rayondakı bir sıra yeni istifadəyə verilmiş obyektlərə baş çəkmişdir.

❁ ❁ ❁

İtaliya Respublikası Nazirlər Şurasının Prezidenti Enriko Lettan Azərbaycana rəsmi səfər etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Nazirlər Şurasının Prezidenti Enriko Lettanın əvvəlcə təkbətək, sonra isə geniş tərkibdə görüşləri olmuş, keçirilən mətbuat konfransında prezidentlər bəyanatla çıxış etmişlər.

❁ ❁ ❁

Prezident İlham Əliyev Bakının Yasamal rayonundakı 31 nömrəli orta ümumtəhsil məktəbində aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.

❁ ❁ ❁

Sabunçu—Zabrat—Buzovna avtomobil yolunun Zabrat—Buzovna sahəsinin əsaslı şəkildə yenidən qurulması işləri ilə yaxından tanış olan ölkə Prezidenti İlham Əliyev icraçılara lazımi tapşırıq və tövsiyyələrini vermişdir.

**Miri RƏHİMOV.**

# Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir və ən səmimi arzularımı çatdırıram.



Ramazan ayı müqəddəs kitabımız Qurani-Kərimin nazil olması ilə əlamətdardır. İnsanlar arasında birlik, bərabərlik və xeyirxahlığı, dini dəyərlərə bağlılığı təcəssüm etdirən bu mübarək ayda müsəlmanlar Allah qarşısında vicdani borcunu daha dolğun ödəmək fürsəti qazanır, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Tarixən İslam dünyasının mədəni mərkəzlərindən biri kimi tanınmış Azərbaycanda dini və milli-mənəvi dəyərlərə hörmət həmişə qorunub saxlanmışdır. Respublikamızda vicdan və dini etiqad azadlığı, dövlət-din münasibətləri ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun olaraq təmin edilmiş, müstəqillik illərində milli-mənəvi dəyərlərimizin təbliği və təşviqi sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, islam mədəniyyətinin nadir incilərindən olan tarixi-dini abidələrimizin əsaslı şəkildə yenidən qurulması sahəsində işlər davamlı xarakter almışdır. Bu il Cənubi Qafqazın ilk müsəlman məbədi— Şamaxı Cümə məscidi bərpa edilərək dindarların istifadəsinə verilmişdir.

İnsanların qəlbini və ruhunu ilahi hikmətlə nurlandıran mübarək Ramazan ayı artıq başa çatır. Orucluğun sınaqlarından alnıaçıq çıxan vətəndaşlarımız bayram sevincini səmimiyyətlə bölüşür, xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi üçün diləklər edilir, şəhidlərimizin xatirəsi minnətdarlıqla yad olunur.

Əziz bacı və qardaşlarım!

Cəmiyyətimizdə humanizmin, qardaşlıq və həmrəylik duyğularının təntənəsinə çevrilən Ramazan ayını hər il olduğu kimi, bu il də böyük qürur və məmnunluq hissi ilə yola salırıq. Bu əziz bayram günlərində bir daha bütün xeyirxah dua və diləklərinizlə həmrəy olduğumu bildirir, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

**Allah orucunuzu qəbul etsin!**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 7 avqust 2013-cü il.*

# Mərkəzi Seçki Komissiyasının iclası Azərbaycan Respublikası Prezidentinin seçkilərində İlham Heydər oğlu Əliyevin namizədliyini təsdiq etmişdir

Avqustun 10-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilmişdir.

İclasda MSK katibi Arifə Muxtarova Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş cənab İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin təsdiq olunmasına dair məsələ barədə məlumat vermişdir. O qeyd etmişdir ki, Yeni Azərbaycan Partiyasının 2013-cü il 7 iyun tarixli V qurultayının və həmin partiyanın İdarə Heyətinin 2013-cü il 5 avqust tarixli iclasının qərarları ilə 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Heydər oğlu Əliyevin namizədliyi irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2013-cü il avqustun 5-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparmış, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Komissiya qərara almışdır ki, 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyi təsdiq edilsin.

Sonra Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması barədə məsələyə baxılmışdır. Yeni Azərbaycan Partiyası sədrinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Əli Əhmədov və həmin partiyanın icra katibinin müavini, Milli Məclisin deputatı Mübariz Qurbanlı səlahiyyətli nümayəndələr, icra katibinin müavini, deputat Siyavuş Novruzov isə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə kimi qeydə alınmışlar.

Mərkəzi Seçki Komissiyasının iclasında beynəlxalq qurumların təmsilçiləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.